**“Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 1, maddə 9, 8, maddə 598, 9, maddə 668; 2007, 4, maddə 320, 5, maddə 446, 7, maddə 712, 11, maddə 1078; 2008, 6, maddə 470, 7, maddə 608; 2010, 7, maddə 590; 2011, 4, maddə 266, 11, maddə 982; 2012, 6, maddə 521; 2014, 2, maddə 84; 2015, 5, maddə 491; 2018, 3, maddələr 375, 394, 5, maddə 887; 2019, 4, maddə 592) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 71.1-ci maddədə “Azərbaycan Respublikası Milli Məclisi deputatının aldığı məbləğdə” sözləri “aylıq vəzifə maaşının 50 faizi məbləğində” sözləri ilə əvəz edilsin;

1.2. 71.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“71.2. Konstitusiya Məhkəməsi sədrinin aylıq vəzifə maaşı 3550 manatdır.”;

1.3. 72.2-ci və 73.6-cı maddələr ləğv edilsin;

1.4. 73.9-cu maddədən “, 73.6-cı” sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2022-ci il
567-VIQD